**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№307/1** **27 dekabr 2018-ci il**

# Azərbaycan Respublikası Auditorlar Palatasının və onun Şurasının 2019-cu il üzrə iş planları barədə

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməyə və "Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasına (2012-2020-ci illər)" uyğun olaraq, habelə Auditorlar Palatasının 2018-ci il üzrə iş planının 8.9-cu "2019-cu il üçün Auditorlar Palatasının iş planının hazırlanması" bəndinin icrası ilə bağlı tərtib edilmiş Auditorlar Palatasının və onun Şurasının 2019-cu il üzrə iş planlarının layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının və onun Şurasının 2019-cu il üzrə iş planları təsdiq edilsin (əlavə olunur).

2. Məsul icraçılara tapşırılsın ki:

- təsdiq edilmiş iş planlarında nəzərdə tutulmuş tədbirlərin müvafiq qaydada vaxtında və keyfiyyətlə icra olunmasını təmin etsinlər;
- iş planlarında müvafiq işlər üzrə plan-proqramları və qrafikləri 2019-cu ilin yanvar ayı ərzində təqdim etsinlər.

3. Auditorlar Palatasının Şurası yanında Komitələrin rəhbərlərinə tövsiyə edilsin ki, komitələrin əsasnamələrinə uyğun olaraq Azərbaycan Respublikası Auditorlar Palatasının və onun Şurasının 2019-cu il üzrə iş planlarında nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsində yaxından iştirak etsinlər.

4. Auditorlar Palatasının Aparatına (Q.Bayramov, N.Talıbov, F.Qarayev) və Beynəlxalq əlaqələr şöbəsinə (F.Kamalova) tapşırılsın ki, növbəti ilin I rübü ərzində Azərbaycan Respublikası Auditorlar Palatasının 2019-cu il üzrə iş planının Azərbaycan, rus və ingilis dillərində Palatanın internet səhifəsində yerləşdirilməsini təmin etsinlər.

**Şuranın sədri** **Vahid Novruzov**